


(əvvəli ötən sayımızda)

# "Can Azərbaycan"ın könüllü elçiləri,

## yaxud Şimali Makedoniyanın Beynəlxalq Vizyon Universitetindən Azərbaycana dəstək

***Biz minlərlə kilometr uzaqlıqda olmamıza rəğmən, həmişə Azərbaycanlı qardaşlarımızın yanındayıq, hər zaman yanında olduq və daha çox olacağıq. Erməni zülmünün, onların törətdiyi qətliamın gündəmə gətirilməsində əlimizdən gələni etməyə davam edirik. Azərbaycan bizim də dövlətimizdir. Amma lütfən, Azərbaycanı yaxşıca qoruyun. Azərbaycansız Türklük ağlasığmazdır!" Azərbaycana bütün qəlbiylə bağlı olan bu gözəl qardaşımızın sözləri məni bir daha təsirləndirdi və ruhlandırdı. 'Burda bizimlə birlikdə Azərbaycan üçün Vizyon Universiteti olaraq daha nələr etmək olar?"- deyə sual verdim. 'Bu pandemiya günləri bitsin, inşallah, universitetimizdə "Azərbaycan günləri", "Azərbaycanı tanıtma günləri", "Azərbaycan Folkloru günləri" keçirə bilərik.Azərbaycanlı qardaşlarımızı dəvət edərik. Vizyon Universiteti olaraq biz bunu böyük məmnuniyyətlə edərik',- dedi. Sonra da gülümsəyərək zarafatyana 'Onu da söyləmək istəyirəm ki, siz bura, Universitetimizə Azərbaycandan gələn ilk mədəniyyət elçisisiniz. Biz bir neçə dəfə Azərbaycana getdik. Amma bura indiyədək Azərbaycandan çox az insan gəlib. Sizi isəAzərbaycanın ilk mədəniyyət elçisi elan edə bilərik', - deyə əlavə etdi. FadilHocanın bu sözləri mənə bir neçə gün öncə Abdulməcid bəylə söhbət edərkən onun söylədiklərini xatırlatdı.***

Türk dünyasına ürəkdən bağlı olan, xüsusilə Türkiyə sevdalısı olduğunu bildiyim, hətta FahriTunaya ünvanlandığı bir məqaləsində "Ana vətənimiz Türkiyə günəş kimi parlasın, o günəşin kölgəsi Rumelidə bizlərə yetər..." - deyən prof.dr. Abdulməcid Nurəddinin bəy həm də Azərbaycanı çox sevir. Hələ Bakıda olarkən onun mavi səmamızda dalğalanan üçrəngli bayrağımıza neçə sevgiyləboylanıb baxdığının, hər il universitetlərində anım gününü təşkil etdikləri Xocalı soyqırımından bəhs edərkən əsl hüquqşünas təmkinilə boğmağa çalışdığı "səssiz haray"ının şahidi olmuşdum... Azərbaycana yola düşməzdən əvvəl onunla da Beynəlxalq Vizyon Universiteti, pandemiya və onlayn təhsil məsələsi ilə əlaqədar xeyli söhbət etdik. Söhbətimin sonunda "Hocam, sizin Türkiyə sevdalısı olduğunuzu bilirəm, Azərbaycan sevginizdən də bizə söz açmanızı istərdim", - dedim. Özünəməxsus təmkinlə belə cavab verdi: ""Türkiyə sevdalısı" dedikdə, biz Azərbaycanı Türkiyədən ayrı deyil, bir bütün olaraq görürük. Fiziki, ya da coğrafi fərqliliklər könüllərin eyni düşünməsi və eyni yaşamasına mane deyil. Biz türk dünyasını bir bütün olaraq görürük. Amma Türk dünyasının Türkiyədən sonra ilk açılan qapısının Azərbaycan olması və bir də mənim hələ Qırğızstanda, universitetillərindən azərbaycanlı qardaşlarımı yaxından tanımağım, onlarla dostluğum Azərbaycanıdaha çox sevməyiminsəbəblərindəndir.Qırğızıstandaykən biz Azərbaycandan bir neçə qardaşımızla bərabər təhsil aldıq. Həyatın gerçəkləri ilə milli tarixin gerçəkləri heç zaman dəyişməz. O coğrafiyada insanların birlikdə oxumaq və yaşamaq imkanı olmaya da bilər. Ümumiyyətlə, türk tarixinə, qədim türk tarixinə baxdığımız zaman Azərbaycanın, sadəcə Azərbaycan Respublikasının deyil, Güneyin də bizim bir parçamız olduğunu, bizim babalarımızınQafqazdan, hətta daha irəli gedib Orta Asiyadan, şübhəsiz ki, əzəmətli bir şəkildə bura daşıdıqları o mədəniyyəti görürük. Buna görə də istər Güney Azərbaycanı, ya da Qarabağı ayırmadan Yeniseydən Dunaya qədərki hövzə bizim ölkə olaraq bir bütündür. Macarıstanı da ayırmaq olmaz... Türk dünyasını bir ev kimi düşünün. Bu evdə hər şey yerində olmasa, gözəlliyi, estetikası yoxa çıxar.Bu məsələni mədəni miras və dini həssasiyyət olaraq iki bərabər hissəyə bölmək lazımdır. Din bir seçim məsələsidir. İnsan onu dəyişdir-



mək hüququna sahibdir və buna hörmətlə yanaşarıq. Amma qardaşlıq hüququ, qan bağı, soy bağı, genetik kodlarımız bir olduğu üçün biz Türk dünyasını bir bütün olaraq görürük. Bu səbəbdən də mən Azərbaycanı heç vaxt ayırmıram və bunu istər məqalələrimdə, istərsə də elmi konfrans və toplantılarda söyləyirəm. Belə demək mümkünsə, Azərbaycanın könüllü və yenilməz fəxri səfiriyəm!(Hörmətli professorun böyük qürur hissi və səmimiyyətlə, bir az da zarafatyana, gülümsəyərək söylədiyi bu son ifadədə əslində böyük həqiqət var.Elə mən də tanıdığım ilk gündən, vətənimizi ürəkdən sevən Abdulməcit bəyi və FadilHocanı Azərbaycanın könüllü, fəxri elçiləri hesab edirəm.-Ş.A.H.) ***Əlbəttə, bütün türk qardaşlarımız bizim üçün əvəzolunmazdır. Amma Azərbaycanın yeri tamamilə başqadır! Türkiyədən də həm insanların həyat tərzi, milli kimlikdəki həssasiyyətləri məsələsində də heç bir fərqi yoxdur. Və unutmayaq ki, Azərbaycanın, ümumiyyətlə, insanlığa, xüsusilə də Türk dünyasına istər ədəbiyyat, istərsə də siyasət sahəsində qazandırdığı çox böyük şəxsiyyətləri var. Yeri gəlmişkən, hörmətli Elçibəyi də rəhmətlə yad edirik. Çünki o da Türk dünyası üçün dəyərli bir insandır. Şairlərinizi sadalamıram, çünki onsuz da Azərbaycan şairlər diyarıdır!"***

> ***Türk dünyasına ürəkdən bağlı olan, xüsusilə Türkiyə sevdalısı olduğunu bildiyim, hətta FahriTunaya ünvanlandığı bir məqaləsində "Ana vətənimiz Türkiyə günəş kimi parlasın, o günəşin kölgəsi Rumelidə bizlərə yetər..." - deyən prof.dr. Abdulməcid Nurəddinin bəy həm də Azərbaycanı çox sevir. Hələ Bakıda olarkən onun mavi səmamızda dalğalanan üçrəngli bayrağımıza neçə sevgiyləboylanıb baxdığının, hər il universitetlərində anım gününü təşkil etdikləri Xocalı soyqırımından bəhs edərkən əsl hüquqşünas təmkinilə boğmağa çalışdığı "səssiz haray"ının şahidi olmuşdum...***

Makedoniyadan vətənə qayıtdıqdan sonra ordakı gözəl insanlar - makedoniyalı türk qardaşlarımız barədə təəssüratlarımı qələmə almağa, götürdüyüm müsahibələri yazıya köçürməyə başlasam da, daha geniş şəkildə, kitab olaraq nəşr etdirmək arzusundayam.Bu sətirləri isə yaziya köçürməklə, daha öncə də qeyd etdiyim kimi, bu ağır, qanlı-qadalı, eyni zamanda şərəfli və zəfər müjdəli günlərimizdə - torpaqlarımızın azadlığı uğrundakı vətən müharibəsində dəyərli türk qardaşlarımızın Azərbaycan sevgisini, bizə bütün varlıqları ilə dəstək olmaq arzusunu çatdırmaq istədim. Vətən müharibəsinin elə ilk günündə - 27 sentyabrda ilk mesajıFadilHocadanaldım. Salamsız-kəlamsız, ikicə cümləyə sığışan ilahi bir dua, ülvi bir istək vardı bu mesajda: "Azərbaycan ordusunu, Allahım, müzəffər eylə. İnşallah, düşmanlarımızı pərişan eylə." Sonra zəfərlərimizin xəbəri gəldikcə, hörmətli rektordan yeni mesajlar, Türk dünyasının birliyini tərənnüm edən gözəl türkülərlə zəngin videolar da gəldi. "Bütün qardaş Azərbaycan xalqına salam olsun. Ordumuzu Allah müzəffər eyləsin, inşallah", -deyə xeyir-dualarını əsirgəmədi dəyərli Fadil qardaşımız.Abdulməcid bəy də həmçinin unutmadı bizləri; "Can Azərbaycanın qəzası mübarək olsun. Qarabağ azad olsun.Turan elləri var olsun", "Dualarımız can Azərbaycanla, Allah qardaşlarımızı müzəffər etsin. Türk yurduna salam olsun", "Can Azərbaycanı Rəbbim müzəffər etsin, şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa, Can Azərbaycana qüdrət və zəfər diləyirəm, bu haqlı müharibənizdəyanınızdayıq. Dualarımız Azərbaycanla,Allah qardaşlarımızı müzəffər etsin. Qarabağ azad olsun. Türk yurduna salam olsun!" – deyə bir-birinin ardınca mənəvi qardaşlıq və dəstək mesajları göndərdi. Var olsunlar! Bu günlərdə isə Fadil bəyin Beynəlxalq Vizyon Universiteti adından Azərbaycana, illərdir əməkdaşlıq etdiyi bir universitetə, Azərbaycan İqtisad Universitetinin rektoru hörmətli prof. dr. Ədalət Muradova ünvanlandığı dəstək məktubu isə xüsusilə dəyərlidir. "Vizyondan Azərbaycan dövlətinin apardığı ədalətli mübarizəyə dəstək məktubu" adlandırdığı bu məktubda Azərbaycan torpağı olan Dağlıq Qarabağı 30 ilə yaxındır, beynəlxalq hüquqa zidd bir şəkildə işğal altında saxlayan Ermənistanın ölkəmizin mülki yaşayış yerlərində müdafiəsiz və məsum insanlara qarşı ağır silahlarla törətdiyi hücumu qətiyyətlə pislənərək qınanılır. "Azərbaycan Respublikasının torpaqlarını işğal edən Ermənistana qarşı Azərbaycan dövlətinin beynəlxalq və qanuni özünümüdafiə hüququ çərçivəsində Azərbaycan dövlətinin öz ərazi bütövlüyü uğrunda apardığı müdafiə hərəkatını sonunadək dəstəkləyirik",- yazan prof.dr.FadilHoca Beynəlxalq Vizyon Universiteti adından tezliklə haqq-ədalətin bərpa olunacağına, Dağlıq Qarabağın işğaldan azad ediləcəyinə əminliyini ifadə edərək şəhidlərimizəUca Allahdan rəhmət, yaralı qardaşlarımıza şəfalar diləyib. Rəhbərlik etdiyi universitet və şəxsən öz adından bütün azərbaycanlı qardaşlarını ürəkdən dəstəklədiyiklərini, salam və dualarıyla həmişə yanımızda olduqlarını bildirib.

Şimali Makedoniyanın Qostivar şəhərində yerləşən Beynəlxalq Vizyon Universiteti – yaradılması ilə "Bir əsrə atılan imza"! Şüarları da "Bir əsrə atılan imza" oldu. Bu, bir əsr sonra yenə türkcənin akademik səviyyədə Balkanlarda təsis edilməsi deməkdir. Bir neçə il öncə Türkiyənin Qaziantep Universitetində "Balkanlarda türklər" mövzusunda verdiyi konfransda bir önəmli məsələni xüsusi vurğulamışdı FadilHoca: "Biz bu Balkanlar adlanan dalğalı dənizdə yaxşı üzməyi öyrəndik. Bu dənizdə yaxşı üzməyi bacarmayan, təəssüf ki, dalğalara qərq olar, assimilyasiya olar." ***Bu gün artıq yeddi ildir ki, Balkanlar adlı dənizdə dayanmadan irəliləyən bir 'gəmi" var – Beynəlxalq Vizyon Universiteti! O nəhəng gəminin 'kapitan'ı da, onunla birgə yola çıxan insanlar da dalğalı, təlatümlü dənizdə yaxşı üzməyi bacaran, fırtınalardan qorxub-çəkinməyən insanlardır. Ürəklərində Allah sevgisi, dillərində doğma türkcəmiz, aldıqları hər nəfəsdə Türklük qoxuyan torpaqların ətrini duyan bu evladi-fatihan da günümüzün könül fatehləri, qəhrəmanlarıdır. Balkanlarda Türk-İslam mədəniyyətini,şanlı türk varlığımızı dünyaya tanıdaraq yaşadan makedoniyalı türk qardaşlarımızın yaratdığı möhtəşəm bir təhsil ocağıdır Beynəlxalq Vizyon Universiteti!Türklük qoxuyan torpaqlarda yenidən tarix yazır! Bu universitetin hörmətli professorları, qurucu rektoruFadilHoca və prorektor Abdulməcid Nurəddin - onlar Avropada elmin bayrağını ucaltmaqla türklüyümüzü, milli və mənəvi dəyərlərimizi yaşadırlar. Eyni zamanda, Türk dünyamızın hər bir tərəfində yaşayan qardaşlarına mənəvi dəstəyə həmişə hazırdırlar. Bu insanlar Azərbaycana xüsusi sevgiləri ilə də seçilirlər. 'Can Azərbaycan" deyə adlandırdıqları vətənimizin könüllü və yenilməz fəxri elçiləri, var olun!***

***P.S. Bu məqamda, sanki makedoniyalı türk şairinin -Fahri Kayanın və bütün evladi-fatihanınuzaqlardan gələnsəsini eşidirəm: 'Əlbəttə, varıq!"***

**Dos.dr.**
**Şəlalə Ana Hümmətli**

(davamı gəl